# Boşluq

Şəhidlər xiyabanında uşaq qəbrinə deyilmiş şeir

Səsinlə yer-göy boşalıb,
Bu dünaynın hər yeri boş,
Boş qalıbdır ömür yolun,
Boşdur cəlladın koru, boş.

Boş dünyadan istəyin nə?
Nəyi var gətirək sənə?!
Boş dünyada görüşünə
Gələn də gəlir əliboş.

Baş bildiyimiz başların
Boşa çıxdı çox işləri.
Biz inanan kişilərin
Beli də boşmuş, beli boş.

Bu dünyanın qara yeli
Qoymadı bir ümid yeri...
Ah, sinifdə şagird yeri,
Sinəmdə güllə yeri boş...

Mehdi G. **Boşluq :** şeir // Ulduz. – 1991. - № 1. S. 28.